iki sahil

# Akademik Azad Mirzəcanzadə - neft elminin fenomeni



Ötən gün Azərbaycan Yazıçılar Birliyinin nəzdindəki Natəvan klubunda "Akademik Azad Mirzəcanzadə - neft elminin fenomeni" adlı monoqrafiyanın təqdimatı keçirildi.

Təqdim olunan monoqrafiya XX əsrin dahi Azərbaycan alimi, akademik Azad Mirzəcanzadənin həyat və yaradıcılığına, pedaqoji fəaliyyətinə, neft sənayesində fundamental işlərinə, elmi əsərlərinə, bu günə və gələcəyə yönələn baxışlarına həsr olunub.

Sözügedən monoqrafiyanın müəllifləri UNESKO mükafatı laureatları - "Neftqazelmitədqiqatlayihə" İnstitutu direktorunun müşaviri, texnika elmləri doktoru, professor Eldar Şahbazov və "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Qazma və sement məhlulları" laboratoriyasının müdiri, texnika elmləri doktoru Elçin Kazımovdur.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi Azad Mirzəcanzadə ilə bağlı xatirələrindən danışaraq bildirdi ki, sözügedən monoqrafiyanın əhəmiyyəti olduqca böyükdür: "Bu kitabın ərsəyə gəlməsi üçün böyük zəhmət çəkilib. Kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə dərin təşəkkür edirəm. Akademik Azad Mirzəcanzadə həmişə tələbələrinə böyük qayğı ilə yanaşırdı. Tələbələri bu qayğını hər zaman hiss edirdilər və bu gün onlar Azad Mirzəcanzadəni xoş hisslərlə xatırlayırlar".

Tibb elmləri doktoru, professor Paşa Qəlbinur söylədi ki, akademik Azad Mirzəcanzadə ömrünü neft sahəsinin tədqiqinə həsr etmişdi: "Yüzlərlə elmi əsərin, ixtira və patentin müəllifi, elmlər doktorları və elmlər namizədlərinin elmi rəhbəri olan Azad Mirzəcanzadə özünün elmi fəaliyyətində neft və qazçıxarma proseslərinin qlobal optimallaşdırılmasına, quru və dəniz neft yataqlarının işlənilməsinin dinamik metodlarının hazırlanıb tətbiq edilməsinə layiqli töhfələr verib. Belə dəyərli monoqrafiyanı ərsəyə gətirdikləri üçün Eldar Şahbazova və Elçin Kazımova dərin minnətdarlığımı bildirirəm".

Professor Telman Salavatov akademik Azad Mirzəcanzadə ilə bağlı xatirələrindən geniş danışaraq vurğuladı ki, onun tədris etdiyi dərslərdə böyük təcrübə və bilik toplayırdıq: "Azad Mirzəcanzadə 100-ə yaxın elmlər doktoru, 300-dən çox elmlər namizədi yetişdirib. Yalnız bizim ölkədə deyil, Vətənimizin hüdudlarından kənarda da məşhur olan bir çox alimlər Azad Mirzəcanzadənin klassik elm məktəbini keçiblər. Gənclik illərində neftçi peşəsini tale yolu seçməklə Azad müəllim neft elminin inkişafında müstəsna rol oynayıb. Ona görə də belə bir insan haqqında sözügedən monoqrafiyanın nəşr olunması olduqca vacib idi. Tədbirin əhəmiyyətini yüksək qiymətləndirirəm".

Daha sonra çıxış edən "Akademik Azad Mirzəcanzadə - neft elminin fenomeni" monoqrafiyasının həmmüəllifi Eldar Şahbazov söylədi ki, geniş oxucu kütləsinin diqqətinə çatdırılan bu kitabda dünya neft elminin korifeyi, akademik Azad Mirzəcanzadə ilə bağlı xatirələr, alimin düşüncə və baxışları öz əksini tapıb: "Neft-mədən mexanikasının nəzəri və praktik əsaslarının yaradıcısı olan Azad Mirzəcanzadənin fəlsəfi dünyası böyük tədqiqat obyektidir. Alimin həyat və yaradıcılığına həsr olunan, elmi-publisistik aspektlərdən qələmə alınan bu məcmuə Azərbaycan, rus və ingilis dillərində geniş oxucu kütləsinə çatdırılır. Dünya şöhrətli alim Azad Mirzəcanzadə Azərbaycan xalqının dünya sivilizasiyasına bəxş etdiyi elə dühalardandır ki, onun dəst-xətti, fəlsəfi baxışları, düşüncələri bu gün də yaşayır və elmin enişli-yoxuşlu yollarını nurlandırır. Azad Mirzəcanzadə zirvəsinin böyüklüyü dahi alimin dünyasını dəyişəndən sonra da ideyalarının çiçəklənməsində və inkişaf etdirilməsindədir".

"Akademik Azad Mirzəcanzadə - neft elminin fenomeni" monoqrafiyasının digər həmmüəllifi Elçin Kazımov çıxış edərək bildirdi ki, bu kitabın təqdimatı olduqca əhəmiyyətli hadisədir: "Sözügedən monoqrafiya genişməzmunlu və əhatəlidir. Azad Mirzəcanzadə böyük alim, ziyalı idi. Quyuların qazılması, neftqaz yataqlarının işlənməsi və neftin nəqlinin iş rejimlərinin tənzimlənməsi üçün müxtəlif fiziki sahələrin təklif olunması və tətbiqi məhz akademik Azad Mirzəcanzadə fenomeni ilə bağlıdır. Dahi alim ömrünün son illərini nanotexnologiyaların yaradılması ideyasına həsr edib".

Tədbirdə, həmçinin akademiklər Fəxrəddin Qədirov, Vasif Babazadə, Əməkdar müəllim, 147 nömrəli texniki-humanitar liseyin direktoru Həlimə Mehdiyeva və digərləri çıxış edərək monoqrafiyanın əhmiyyətini yüksək qiymətləndirdilər, Azad Mirzəcanzadə ilə bağlı xatirələrini bölüşdülər. Bildirildi ki, Azad Mirzəcanzadənin həyat və fəaliyyətini tədqiq edən kitablar bundan sonra da nəşr olunmalıdır.

**Cavid Əkbərov,**
***"İki sahil"***